**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# FOLKLORŞÜNASLIĞIN TARİXİ

**Magistr təhsil pilləsi üçün**

# PROQRAM

**BAKI -2020**

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI**

**Magistr təhsil pilləsi üçün**

İxtisas: 060201 Filologiya

İxtisaslaşma: Ədəbiyyatşünaslıq (Folklorşünaslıq və mifologiya)

**Fənn: (İF-M2533) FOLKLORŞÜNASLIĞIN TARİXİ**

**(I kurs)**

**PROQRAM**

**BAKI – 2020**

Tərtib edən: **Talıblı Etibar Əjdər oğlu** –
*Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, filologiya elmləri namizədi*

Redaktor: **Orucova Səhər Hidayət qızı** –
*Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor, filologiya elmlər doktoru*

Rəyçilər: **Əliyev Kamran İmran oğlu** –
*Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, filologiya elmlər doktoru, professor*

**İslamzadə Kəmalə Faiq qızı** –
*Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, filologiya elmləri namizədi*

***© "Bakı Universiteti" nəşriyyatı, 2020***

# FOLKLORŞÜNASLIĞIN TARİXİ

## İZAHAT VƏRƏQİ

“Folklorşünaslığın tarixi” fənni (İF-M2533) magistraturanın “folklorşünaslıq və mifologiya” ixtisası üzrə I kursunda 30 saat mühazirə, 15 saat məşğələ olmaqla semestr ərzində cəmi 45 saat həcmində tədris edilir. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət standartlarına uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və məşğələlərdir. Magistrantın dərsdənkənar vaxtda yerinə yetirdiyi sərbəst işləri də tədrisin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

### Fənnin mənimsənilməsinin məqsəd və vəzifələri

**Kursun məqsədi** – magistrantları folklor haqqında elm olan və tarixi inkişaf prosesində dərk edilən folklorşünaslığın mahiyyəti; digər ictimai-kulturoloji elmlərlə əlaqəsi; dünya miqyasında təşəkkülü, inkişaf tarixi; müxtəlif elmi-nəzəri məktəblərin fəaliyyəti; Azərbaycanda meydana çıxması və inkişafının özünəməxsusluqları haqqında hərtərəfli məlumatlandırmaq; folklor haqqında yaranmış elmi-nəzəri konsepsiyaları, folklorşünaslığın elmi tədqiqat prinsip və metodlarını onlara mənimsətməkdən ibarətdir.

**Kursun vəzifələri** – aşağıdakıları magistrantlara tədris etmək və mənimsətməkdən ibarətdir:

1. folklorun mahiyyəti, yaranma və inkişaf qanunauyğunluqlarını;
2. folkloprşünaslıq elminin predmeti, məqsəd və vəzifələrini; filoloji, kulturoloji və ictimai elmlər arasında yerini;
3. dünya folklorşünaslığı tarixində müxtəlif nəzəri təlimlərin, elmi məktəblərin və şəxsiyyətlərin fəaliyyətinin rolunu;
4. folklora fərqli elmi-nəzəri baxışların özünəməxsusluqlarını;
5. folklorşünaslığın elmi tədqiqat prinsip və metodlarını;
6. Azərbaycan folklorşünaslığının təşəkkülü və inkişaf tarixini;
7. görkəmli dünya və ölkə alimlərinin əsərlərindəki yeni elmi ideyaları və nailiyyətləri;
8. çağdaş folklorşünaslığın aktual problemlərini və s.

**Fənnin tədris prosesində yeri**

"Folklorşünaslığın tarixi" fənninin (İF-M2533) təqdim olunan proqramında fənnin tədris prosesində yeri, həmçinin müəyyən edilmiş məqsəd və vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar aşağıdakılara diqqət yetirilmişdir.

Kursun sonunda magistrantların elmi dünyagörüşünə aşağıdakı elementlərin əlavə olunacağı nəzərdə tutulmuşdur:

a) folklorşünaslığın filoloji və kulturoloji elm olaraq universal təbiəti haqqında məlumatlar;

b) folklorşünaslığın təşəkkülünü şərtləndirən amillər haqqında bilgilər;

c) folklorun mənşəyi və epik folklordakı ənənəvi süjet oxşarlıqlarının səbəbi haqqında axtarışların fərqli elmi nəzəriyyələrin yaranmasına təsiri barədə məlumatlar;

d) fərqli elmi nəzəriyyə və konsepsiyaların hər birinin özünəməxsus ideya və prinsipləri haqqında ətraflı informasiya;

e) tarixən meydana çıxmış elmi tədqiqat metod və üsullarının (müqayisəli, sosioloji, tarixi-coğrafi, funksional, strukturalist və s. metodların) hər birinin özünəxsusluqları, əhəmiyyəti haqqında nəzəri bilgilər;

f) Sovet folklorşünaslıq məktəbinin ziddiyyətli inkişaf yolu, uğurları və qüsurları haqqında obyektiv-tənqidi informasiya;

g) Orta əsrlərdə türk-Azərbaycan folklorunun yazıya alınmasının miqyası və əhəmiyyəti barədə ətraflı informasiya;

h) Azərbaycan folklorşünaslığının təşəkkülündə maarifçiliyin rolu haqqında məlumat;

i) Azərbaycan folklorşünaslığının inkişaf tarixi, buradakı tendensiyalar barədə dolğun məlumat;

j) görkəmli dünya və ölkə alimlərinin əsərlərindəki yeni elmi ideyalar və nailiyyətlərlə tanışlıq;

k) çağdaş folklorşünaslığın aktual problemləri barədə ətraflı təsəvvür və s.

Yeni informasiya və biliklərin magistrantların bakalavr təhsil pilləsində əldə etdikləri biliklər bazası üzərində bərqərar edilməsinə – fənlərarası əlaqələrin gözlənilməsinə proqramda əməl edilmişdir. Belə ki, tələbələrin bakalavr təhsil pilləsində "Azərbaycan şifahi xalq ədəbiyyatı" və "Azərbaycan dastanları" fənlərindən qazandıqları

biliklərin yeni fənn vasitəsilə inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda bu fənnin tədrisindən əldə edilən biliklər sonrakı semestrlərdə tədris ediləcək digər fənlərin mənimsənilməsində nəzəri baza kimi istifadə ediləcəkdir.

**Fənnin mənimsənilməsi nəticəsində tələbə bilməlidir:**

– folklorşünaslığın filoloji və kulturoloji elm kimi funksiya və xüsusiyyətlərini;
– folklorşünaslıq elminin yaranmasında romantizmin, romantik fəlsəfənin və müqayisəli dilçiliyin rolunu;
– folklor haqqında elmi nəzəriyyə və konsepsiyaların (mifoloji, iqtibas, antropoloji, tarixi-coğrafi, funksional, strukturalist vəs.) ideya və prinsiplərini;
– görkəmli folklorşünas alimlərin əsərlərindəki əsas elmi nailiyyətləri;
– Azərbaycan folklorunun toplanma, yazıya alınma, nəşr olunma tarixini;
– Azərbaycan folklorşünaslığının tarixini;
– müasir folklorşünaslığın aktual problemlərinin və vəzifələrinin nədən ibarət olduğunu.

**Bacarmalıdır:**

– müxtəlif elmi nəzəriyyələri nəzəri problemlər və prinsiplər üzrə müqayisə etməyi və fərqləndirməyi;
– müxtəlif elmi tədqiqat metod və üsullarını fərqləndirməyi;
– oxuduğu folklorşünaslıq mənbəyinin hansı nəzəri konsepsiyaya aid olduğunu, hansı tədqiqat metodu ilə yazıldığını müəyyənləşdirməyi.

**Yiyələnməlidir:**

– mənimsənilmiş hər hansı bir elmi qaynağı xülasə şəklində nəql etmək, haqqında referat yazmaq qabiliyyətinə;
– konkret folklor mətnlərinin hansı tədqiqat metodu ilə araşdırılmasının məqsədəuyğunluğunu müəyyənləşdirə bilmək vərdişlərinə.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | Saatların miqdarı | O cümlədən | |
|---|---|---|---|---|
| | | Cəmi | mühazirə | məşğələ |
| 1 | Folklor və folklorşünaslıq haqqında ümumi məlumat | 3 | 2 | 1 |
| 2 | Folklorşünaslığın təşəkkülü | 3 | 2 | 1 |
| 3 | Mifoloji nəzəriyyə | 3 | 2 | 1 |
| 4 | İqtibas nəzəriyyəsi, antropoloji məktəb | 3 | 2 | 1 |
| 5 | XIX əsrin sonları–XX əsrin I yarısında folklorşünaslıq | 4 | 2 | 2 |
| 6 | XX əsrin II yarısında folklorşünaslıq: funksional, strukturalist məktəblər | 3 | 2 | 1 |
| 7 | Sovet folklorşünaslıq məktəbi | 3 | 2 | 1 |
| 8 | Orta əsrlərdə Azərbaycan folklorunun yazıya alınması | 3 | 2 | 1 |
| 9 | XIX əsrdə Azərbaycan folklorunun toplanması və nəşri | 3 | 2 | 1 |
| 10 | XX əsrin əvvəllərində Azərbaycan folklorşünaslığı | 3 | 2 | 1 |

| | | | | |
|---|---|---|---|---|
| 11 | 1920-30-cu illərdə Azərbaycan folklorşünaslığı | 2,5 | 2 | 0,5 |
| 12 | 1940-50-ci illərdə Azərbaycan folklorşünaslığı | 2,5 | 2 | 0,5 |
| 13 | 1960-70-ci illərdə Azərbaycan folklorşünaslığı | 3 | 2 | 1 |
| 14 | 1980-90-cı illərdə Azərbaycan folklorşünaslığı | 3 | 2 | 1 |
| 15 | Çağdaş dövrdə folklorşünaslığın aktual problemləri | 3 | 2 | 1 |
| **Cəmi:** | | **45** | **30** | **15** |

## Mövzuların qısa məzmunu

### 1. Folklor və folklorşünaslıq haqqında ümumi məlumat

Folklor termininin mənşəyi, təkamülü.

Beynəlxalq təcrübə və terminin fərqli izahları. Folklor termini geniş və dar anlamlarda.

Folklor termininin xalqın ənənəvi mənəvi yaradıcılıq sahələrini eyni ad altında birləşdirərək "xalq yaradıcılığı" // "xalq kültürü" anlamında və ya ayrılıqda "şifahi xalq ədəbiyyatı" anlamında işlənməsi.

Xalq ədəbiyyatının mahiyyəti, yazılı ədəbiyyatla ortaq və fərqli cəhətləri.

Xalq ədəbiyyatı və digər xalq sənəti sahələri.

Folklorşünaslıq elminin predmeti, məqsəd və vəzifələri.

Folklorşünaslıq – folklorun yaranması, inkişaf qanunauyğunluqları, tarixi, çağdaş durumu, janrları və onların poetikası haqqında elm kimi. Elmin filoloji və kulturoloji aspektləri.

Folklorşünaslığın digər elmlərlə əlaqəsi. Bu əlaqələrin təzahür formaları.

Folklorşünaslığın, filoloji elm kimi, ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi, dilçilik, dialektologiya ilə; kulturoloji elm kimi, musiqişünaslıq, teatrşünaslıq və s. elmlərlə əlaqəsi.

Folklorun öyrənilməsinə sistemli-kompleks yanaşma. Xalqın tarixi, adət-ənənələri, psixologiyasının; mifoloji, dini, fəlsəfi, estetik baxışlarının folklorda əks olunması və folklorun öyrənilməsində müxtəlif ictimai elmlərin – tarixşünaslıq, etnoqrafiya, etnologiya, etnopsixologiya, din tarixinin və s. rolu və əhəmiyyəti.

[1], [2], [3], [12], [13], [48].

## 2. Folklorşünaslığın təşəkkülü

Folklorşünaslıq elmini yaradan zəmin. İlkin qaynaqlar. Avropa intibahı dövründə folklorun yazıya alınma təşəbbüsləri. Folklor mətnlərinin ədəbi işlənməsi.

XVIII əsrdə folklora elmi maraq. C.Vikonun bəşər cəmiyyətinin inkişafı haqqında təlimi və epik xalq nəğmələri//epos haqqında fikirləri. İngiltərə və Almaniya maarifçilərinin folklora münasibəti. Xalq yaradıcılıq ənənələrinin klassisizmin normativ estetikasına qarşı qoyulması.

Erkən romantizm nümayəndələrinin folklorun toplanması və öyrənilməsində rolu. Almaniyada "Tufan və hücum" ədəbi birliyinin fəaliyyəti.

İ.Herderin "Xalq nəğmələri" toplusu və xalq nəğmələrinin xalq ruhunun poetik ifadəsi kimi qiymətləndirilməsi. V.Skottun "Şotland sərhədinin nəğmələri" toplusu.

Heydelberq dərnəyi nümayəndələrinin xalq ədəbiyyatına münasibəti. L.Arnim və K.Brentanonun fəaliyyəti. "Oğlanın sehrli buynuzu" toplusu. L.Arnimin "Xalq nəğmələri haqqında" oçerki.

[21], [28].

## 3. Mifoloji nəzəriyyə

*Mifoloji nəzəriyyə* folklorşünaslığın ilk elmi cərəyanı kimi. Yakov və Vilhelm Qrimm qardaşlarının mifoloji nəzəriyyənin baniləri olaraq fəaliyyətləri.

Qrimm qardaşlarının sələfləri. Hedelberq dərnəyinin folklor ideyalarının romantik estetikanın mifologizmi ilə əlaqələndirilməsi. F.Şellinq, F.və A.Şlegellər və b.nın mifologiya haqqında fikirlərinin mifoloji nəzəriyyənin fəlsəfi əsasını təşkil etməsi. Mifin "poeziyanın ilk obrazı", "sənətin ilk materialı" olması haqqında müddəa.

Alman xalq nağıllarının nəşri. Y.Qrimmin "Alman mifologiyası" məqaləsi. Xalq ədəbiyyatının ilahi mənşəyə malik olması, folklor janrlarının miflərdən yaranması haqqında fikirlər.

Müqayisəli dilçiliyin metodologiyasının Y.Qrimm tərəfindən folklor araşdırmalarında ilk dəfə tətbiq edilməsi. Müxtəlif xalqların folklor sahəsindəki oxşar hadisələrin // süjet oxşarlıqlarının Avropa xalqlarının qohumluğu və ilkin, müştərək mif qaynağı – "pramif"lə əlaqələndirilməsi.

Mifologiyanın milli mədəniyyətin, folklorun əsas qaynağı kimi dərki.

Mifoloji məktəbin nümayəndələri və onların əsərləri. Mifoloji məktəbdə etimoloji və analoji təmayüllər. Mifoloji məktəbin qolları. Solyar, metereoloji və demonoloji nəzəriyyələr.

Mifoloji məktəbin elm tarixində əhəmiyyəti, folklorun aktiv toplanma, nəşr və öyrənilməsində rolu. Müqayisəli folklorşünaslığın əsasının qoyulması, folklorun bir sıra nəzəri problemlərinin irəli sürülməsi. Əsas qüsuru.

[3], [13], [25], [28], [48].

## 4. İqtibas nəzəriyyəsi, antropoloji məktəb

*İqtibas nəzəriyyəsinin* digər terminoloji ifadələri: köç nəzəriyyəsi, səyyar süjetlər nəzəriyyəsi, tarixi-mədəni məktəb, Hind məktəbi.

XIX əsrin II yarısında – Şərq-Qərb əlaqələrinin genişləndiyi dövrdə meydana çıxmasının səbəbləri.

Alman alimi T.Benfeyin qədim hind abidəsi "Pançatantra"nı nəşr etməsi (1859). Nəşrin müqəddiməsi iqtibas nəzəriyyəsinin proqram müddəalarının ifadəsi kimi.

Müxtəlif xalqların folklorundakı uyğunluğun xalqların tarixi-mədəni əlaqələri ilə izah edilməsi. Hind ədəbiyyatının dünya xalqlarının nağıl süjetlərinin əsas mənbəyi hesab edilməsi.

Süjetlərin köçünü şərtləndirən tarixi hadisələr və köç yolları haqqında mülahizələr.

İqtibas nəzəriyyəsinin digər nümayəndələri. R.Keler, M.Landau, Q.Paris, D.Komparetti, F.Buslayev, Q.Potanin və b. əsərləri.

Dünya xalqlarının tarixi-mədəni əlaqələrinin öyrənilməsi baxımından nəzəriyyənin əhəmiyyəti. Folklor süjet və motivlərinin formal-sxematik müqayisəsinə əsaslanması, folklorun inkişafında milli-sosial amillərin, dünya mədəniyyətində tipoloji oxşarlığın mövcudluğunun nəzərə alınmaması.

XIX əsrin 60-cı illərində "antropologiya" termininin qavranışı. Folklorşünaslıqda *antropoloji nəzəriyyənin* yaranması. İngilis alimi E.B.Taylor nəzəriyyənin banisi kimi. Onun "İbtidai mədəniyyət" (1871) əsəri.

Taylorun təlimində təkamül nəzəriyyəsindən istifadə, psixoloji yanaşma, etnoqrafiya və folklorşünaslığın bir tam təlim olaraq qavranılması elmi sistemləşdirmənin yeni prinsiplərinin əsası kimi.

"İbtidai mədəniyyət", "insan təbiətinin eyniyyəti", "qalıntılar" anlayışları və onların şərhi. Ayrı-ayrı xalqlarda poetik əsərlərin süjet və motiv oxşarlığının insan təbiətinin eyniyyəti, psixi, ruhi yaxınlığı ilə izah edilməsi; bədii yaradıcılığa eyni xarakterli psixi akt kimi yanaşılması.

Taylorun süjetlərin öz-özünə doğması haqqında müddəası;

Animizm haqqında baxışlar.

Bəşəriyyətin ibtidai mədəniyyətinin tədqiqinə maraq.

A.Lanq və onun "Adətlər və miflər" (1884), "Mif, mərasim və din" (1887) və s. əsərləri. Lanqın din və folklorun mənşəyi haqqında baxışları, "qalıntılar" nəzəriyyəsinin mif və nağılların genezisi məsələlərinə tətbiqi.

C.C.Freyzer antropoloji məktəbin son nümayəndələrindən biri kimi. Onun "Qızıl budaq" əsərində etnoqrafiya, klassik filologiya və folklorun sintezi. Mədəniyyətin və folklorun mənşəyinə ritualist yanaşma.

Məktəbin digər nümayəndələri.

Məktəbin elm tarixində əhəmiyyəti.

[3], [13], [25], [28], [32], [33], [48].

## 5. XIX əsrin sonları – XX əsrin I yarısında folklorşünaslıq

*Tarixi məktəb* folklorun öyrənilməsində sosioloji meylin təzahürü kimi. XIX əsrin sonlarında Rusiyada meydana çıxması. V.F.Miller məktəbin banisi kimi. Onun "Rus xalq ədəbiyyatının oçerkləri" (1897) əsəri.

Folklorun, xüsusilə eposun milli tarixlə əlaqəli öyrənilməsində rolu. Epos və qəhrəmanlıq nəğmələrinin tədqiqi. Rus eposunun tarixi coğrafiyasının yaradılması, folklorun toplanma və nəşrinin genişlənməsi.

Metodoloji məhdudluğu. Xalqın tarixinin və eposun bədii təbiətinin pozitivistcəsinə qavranması; xalq ədəbiyyatının özünəməxsus inkişaf qanunauyğunluqlarının nəzərə alınmaması, tarixlə eyniləşdirilməsi və s.

Nümayəndələri. Əsərləri. Elmi mübahisələr.

*Fin məktəbi,* yaxud *tarixi-coğrafi nəzəriyyənin* formalaşmasında təkamül, pozitivizm və iqtibas nəzəriyyələrinin təsiri.

Y.Kroonun tarixi-coğrafi metodu. K.Kroonun bu metodu rəsmiləşdirməsi, folklora tətbiq etməsi. K.Kroon fin məktəbinin başçısı kimi.

"Beynəlxalq Folklorşünaslar Federasiyası"nın fəaliyyəti.

Variantların müqayisəsi yolu ilə hər süjetin "praforma"sı, "ilk vətəni" və yaranma zamanını müəyyənləşdirməyə cəhd edilməsi.

Nağıl süjetlərinin yayılmasının tarixi-coğrafi areallarının, təsnifləşdirmə prinsiplərinin müəyyənləşdirilməsi; sistemləşdirilməsi; kartoqraflaşdırılması; beynəlxalq kataloqlarının meydana çıxması.

A.Aarnenin müqayisəli metodun texniki üsullarını işləyib-əsaslandırması; nağıl, tapmaca və nəğmələrə tətbiqi. Aarnenin "Nağıl süjetlərinin göstəricisi" əsəri (1910) ilk beynəlxalq süjet kataloqu kimi. Aarne-Andreyev, Aarne-Tompson süjet kataloqları.

S.Tompsonun (ABŞ) "Folklor motivlərinin göstəricisi" adlı əsərinin (1932-1936) folklorşünaslıq tarixində əhəmiyyəti.

Məktəbin digər nümayəndələri.

Fin məktəbinin elm tarixində yeri, əhəmiyyəti.

XIX əsrin sonları - XX əsrin əvvəllərində antropoloji nəzəriyyə ideyalarının davam etdirilməsi: xalq-psixoloji, psixoanalitik, neomifoloji məktəbləri.

*Xalq-psixoloji məktəbi.* V.Vundtun 10 cildlik "Xalqların psixologiyası" əsərinin folklorşünaslığa təsiri. İbtidai xalqların şifahi ədəbiyyatının, mifologiyasının yaradıcılıq psixologiyası baxımından şərhi. Kollektiv yaradıcılıq qanunlarının araşdırılması. "Kollektiv iradə", "xalq ruhu" anlayışları.

*Psixoanalitik məktəb.* Folklor əsərlərinin, xüsusilə mifologiyanın Z.Freydin qeyri-şüuri yaradıcı başlanğıc haqqında psixoloji təliminə əsaslanaraq araşdırılması.

*Neomifoloji məktəb* XIX əsr mifoloji məktəbinin XX əsr varisi kimi. Formalaşmasında antropoloji nəzəriyyənin, freydizmin, İsveçrə alimi K.Yunqun "arxetiplər" nəzəriyyəsinin təsiri.

Yunqun arxetipin ibtidai insanların "kollektiv, qeyri-şüuri" yaradıcılıq məhsulu olması, demonik və magik təbiətə malik olması haqqında fikirləri.

M.Botkinin "Poeziyada arxetiplər" əsəri.

Neomifologizmin Qərbdə geniş yayılması. Əsas nümayəndələri. İ.Dümezil, Ş.Otran, F.Reqlan, C.Kempbell və b.nın əsərlərində mifologiyanın magik mərasimlər və dinlə eyniləşdirilməsi. Folklorun mənşəyinin ritual-mifoloji izahı.

[3], [13], [17], [18], [25], [28], [48], [52].

## 6. XX əsrin II yarısında folklorşünaslıq: funksional, strukturalist məktəblər

*Funksional məktəbin* XX əsrin ortalarında İngiltərədə meydana çıxması. B.Malinovski məktəbin banisi kimi. Onun "Funksional nəzəriyyə" (1939), "Mədəniyyətin elmi nəzəriyyəsi" (1941) əsərləri.

Mədəniyyətə kompleks yanaşmanın antropoloji, sosioloji, psixoloji, linqvistik və folklor aspektləri. Mədəniyyət və folklorun insanın əsaslı tələbatlarına uyğun gələn sistem kimi öyrənilməsi.

B.Malinovskinin "tələbatlar konsepsiyası". "Mütəşəkkil davranış", "sosial institut", "funksiya" anlayışları. Formanın funksiyadan asılılığı haqqında fikirlər.

Mif və mərasimin əlaqəsi, mifin mədəniyyət sistemində yeri və rolu məsələlərinin şərhində B.Malinovskinin novatorluğu. Arxaik cəmiyyətlərdə mifin praktik funksiya daşıması, tayfa mədəniyyətinin fasiləsizliyini və ənənələrinin davamlılığını təmin etməsi haqqında mülahizələr.

Funksional məktəbin digər nümayəndələri. K.Xaminqton və b.-nın əsərləri.

Folklorşünaslığın inkişafında funksional məktəbin rolu.

*Strukturalizmin* yaranmasına təsir göstərən ilkin ideya və nəzəriyyələr. Formalaşmasında strukturalist dilçilik, riyazi məntiq, informasiya nəzəriyyəsinin təsiri.

Struktur-təhlil metoduna əsaslanan, geniş əhatə dairəsinə malik strukturalist cərəyanın tərkib hissəsi kimi.

K.Levi-Strossun "Struktural antropologiya" (1958) əsəri. Amerika hindularının miflərinin semantik strukturunun öyrənilməsi. Levi-Strossun "ilkin təfəkkür", "binar oppozisiya" ("əks qütblər") haqqında müddəaları.

Strukturalizmdə mətn və struktur anlayışı. Ədəbi əsərlərin struktur qatlarının ierarxik bərpası. Bərpanın aspektləri (sintaktika, semantika, praqmatika).

Strukturalizmdə semiotik, psixoanalitik, sosioloji təmayüllər. Məktəbin digər nümayəndələri (T.Todorov, Y.Lotman, G.Permyakov, Y.Meletinski və b.). Onların əsərləri.

Strukturalizm ətrafında mübahisələr. Folklor arxaikası və poetikasının öyrənilməsində strukturalizm məktəbinin rolu.

[3], [13], [27], [29], [30], [48], [57], [58], [59].

## 7. Sovet folklorşünaslıq məktəbi

1920-30-cu illərdə sovet folklorşünaslığında metodoloji müxtəliflik. Ənənəvi akademik məktəblərin nümayəndələrinin fəaliyyəti.

Leninin milli mədəniyyətin sinfiliyi haqqında fikirləri və vulqar sosiologizmin folklorşünaslıqda zərərli nəticələri. Bəzi eposların "antixalq" yaradıcılığı kimi tənqid və qadağan olunması.

Folklorşünaslığın inkişafına müsbət təsir göstərmiş görkəmli sənətkarların, folklorşünasların fəaliyyəti.

M.Qorki folklorun xəlqiliyi və əhəmiyyəti haqqında. Sovet yazıçılarının qurultayında məruzəsi.

B. və Y.Sokolov qardaşlarının folklorşünaslıq fəaliyyəti. N.Andreyev, M.Azadovski və b.-nın əsərləri.

V.Y.Propp: formal məktəbdən strukturalizmə doğru, onun nağıl poetikası haqqında əsərləri: "Nağılın morfologiyası", "Sehrli nağılın tarixi kökləri".

V.M.Jirmunski türk və slavyan xalqlarının epos yaradıcılığının görkəmli tədqiqatçısı kimi.

Sovet folklorşünaslığında metodoloji mübahisələr. Folklorşünaslığın 1920-30-cu illərin vulqar sosiologizmindən konkret tarixi və semiotik araşdırmalara doğru inkişafı.

Meletinski, Permyakov, Neklyudov və b.-nın əsərləri.

Elmi mərkəzlər və onların fəaliyyət istiqamətləri.

Əsas nəşrlər. Coxcildlik "Rus folkloru", "SSRİ xalqlarının eposları" və s. nəşrlər.

[25], [26], [31], [45], [51], [57], [58], [59], [60], [61].

## 8. Orta əsrlərdə Azərbaycan folklorunun yazıya alınması

XI-XVIII əsrlərin Azərbaycan folklorşünaslığının tarixi baxımdan zəmin (hazırlıq) mərhələsi kimi qiymətləndirilməsi.

Folklorşünaslıq baxımından iki meyil: klassik yazılı ədəbiyyatda (Nizami, Xətayi, Füzuli və b.) milli folklordan istifadə; epos, atalar sözü, bayatı və s. janrların yazıya alınma təşəbbüsləri.

Orta əsrlərdə türk etnosunun məskunlaşdığı etnocoğrafiyada vahid türk folklor arealının təşəkkül tapması məsələsi. Azərbaycan folklorunun toplanması işinə vahid folklor arealı kontekstində yanaşılmasının zəruriliyi.

Türk folklor örnəklərinin ilk təkmil yazıya alınması təcrübəsi. M.Kaşğari (XI əsr) ilk türk folklor toplayıcısı kimi. "Divani-lüğət-it-türk"ün türkoloji, dilçilik, kulturoloji, folklorşünaslıq aspektləri.

"Divani-lüğət-it-türk"də əks olunmuş ədəbi mətnlər, canlı xalq danışıq dilindən yazıya alınmış savlar – atalar sözü, zərb-məsəl, deyimlər; əfsanə, rəvayət, inanc, xalq şeiri nümunələri, dastanlardan parçaların folklorşünaslıq tarixi baxımından əhəmiyyəti.

“Dədə Qorqud oğuznamələri”nin “kitab”laşdırılması – “Kitabi-Dədə Qorqud” əlyazmalarının meydana çıxması Oğuz-Azərbaycan folklorunun ilk mükəmməl yazıya alınması faktı kimi.

“Kitabi-Dədə Qorqud”un oğuznamələr əsasında “yazılmış” müəllifli bir ədəbi əsər deyil, canlı ozan repertuarından qələmə alınmış epik folklor mətni kimi qiymətləndirilməsi.

Atalar sözü və məsəllərin əlyazma topluları: “Oğuznamə” adı ilə də tanınan “Əmsali-Məhəmmədəli” (XVII əsr), Abbasqulu Marağının toplayıb yazıya aldığı “Əmsali-türkanə” (XVIII əsr).

“Molla Nəsrəddin lətifələri”nin orta əsrlərdə toplanıb, yazıya alınması.

Aşıq şeiri və bayatılar cünglərdə.

XVII-XVIII əsrlərdə Azərbaycan folklorunun erməni və gürcü əlifbaları ilə yazıya alınması və onun ictimai-kulturoloji səbəbləri. Bu qəbil yazıyaalmalar və əlyazmaları Azərbaycan-türk dilinin, mədəniyyətinin, onun tərkib hissəsi kimi folklorunun Qafqaz regionunda nüfuzunun, başqa xalqların mədəniyyətinə pozitiv təsirinin əyani göstəricisi kimi.

[1], [4], [7], [22], [42], [48].

## 9. XIX əsrdə Azərbaycan folklorunun toplanması və nəşri

Ə.Qaracadağinin əlyazması.

“Kitabi-Dədə Qorqud”un elm aləminə tanıdılmasında H.Ditsin xidməti.

XIX əsrdə rusdilli mətbuatda (“Kavkaz”, “Novoye obozreniye”, “SMOMPK” və s.) folklor materiallarının nəşr olunması.

“Koroğlu” dastanının müxtəlif əlyazma və nəşrlərinin meydana çıxması. “Paris nüsxəsi”, “Tiflis nüsxəsi”; Şopen, Xodzko, Penn nəşrləri və s.

Azərbaycan maarifçilərinin milli folklorun toplanması, nəşri, təbliği və öyrənilməsində rolu.

M.F.Axundzadə, M.Kazım bəy, H.Zərdabi, E.Sultanov, M.Mahmudbəyov və b.-nın fəaliyyəti. H.Zərdabi milli nəğmələrimiz haqqında.

Milli mətbuat (“Əkinçi”, “Kəşkül”) və folklor.

[1], [2], [4], [7], [10], [17], [19], [20], [48].

## 10. XX əsrin əvvəllərində Azərbaycan folklorşünaslığı

XX əsrin əvvəllərində Azərbaycanda folklorşünaslığın bir elm kimi formalaşmasına təsir göstərən amillər.

İqtisadi, ictimai-mədəni inkişaf; milli mətbuatın, teatrın tərəqqisi, məktəb şəbəkəsinin genişlənməsi, ali təhsilli maarifçilərin, pedaqoqların çoxalması və folklorun nəşri, tədqiqi məsələsi.

Milli mətbuatda, xüsusilə uşaq mətbuatında folklor nəşrinə geniş yer verilməsi. Bu sahədə "Molla Nəsrəddin", "Məktəb", "Dəbistan", "Rəhbər" və s. jurnalların rolu.

F.Köçərli, R.Əfəndiyev, S.Hüseyn, Y.V.Çəmənzəminli, A.Şaiq, N.Nərimanov və b.-nın folklorla bağlı fəaliyyət və fikirləri.

F.Köçərlinin "Balalara hədiyyə" (1912) kitabı.

[1], [2], [4], [7], [17], [19], [20], [48].

## 11. 1920-30-cu illərdə Azərbaycan folklorşünaslığı

Sovet hakimiyyəti dövrünün ilk onilliyindən milli folklorun nəşri, təbliği, öyrənilməsi yolunda görülən təşkilati işlər.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin fəaliyyəti. Cəmiyyətin xətti ilə aparılan ekspedisiyalar və onların nəticələri.

"Azərbaycanı öyrənmə yolu" məcmuəsində folklor. "İnqilab və mədəniyyət", "Dan ulduzu", "Maarif işçisi" və s. mətbuat orqanlarında folklor mətnlərinin nəşri.

Yeni, ciddi folklor toplu – kitablarının nəşri: "Bayatılar", "El şairləri", "Aşıqlar", "Atalar sözləri", "Tapmacalar", "Dastanlar və nağıllar" və s.

"Koroğlu"nun V.Xuluflu nəşrləri. Ü.Hacıbəylinin "Koroğlu" operası. Koroğluşünaslığın fomalaşması.

"Kitabi-Dədə Qorqud"un H.Araslı nəşri. Azərbaycan qorqudşünaslığının əsasının qoyulması.

H.Zeynallı, Ə.Abid, V.Xuluflu, Y.V.Çəmənzəminli, S.Mümtaz, H.Əlizadənin fəaliyyəti və tədqiqatları. Sovet repressiyası və Azərbaycan folklorşünaslarının taleyi.

[1], [2], [5], [7], [8], [10], [15], [16], [24], [34], [35], [39], [40], [42], [46], [48].

## 12. 1940-50-ci illərdə Azərbaycan folklorşünaslığı

II dünya müharibəsi illərində qəhrəmanlıq dastanları və nəğmələrinə maraq göstərilməsi. "Koroğlu" dastanının H.Əlizadə (1940, 1941), M.Təhmasib (1949, 1956) nəşrlərinin milli koroğluşünaslığın inkişafinda rolu. Nəşrlərin müqayisəsi. "Qaçaq Nəbi" dastanının nəşri.

"Kitabi-Dədə Qorqud"un Bartoldun tərcüməsində rusca nəşri (1950) və eposun qadağan olunması. Nağıl, dastan, aşıq şeirlərinin yeni nəşrləri.

Azərbaycan EA Ədəbiyyat və Dil İnstitutunun Folklor şöbəsinin fəaliyyəti. Toplama, nəşr və tədqiqatların davam etdirilməsi.

H.Araslı, M.Təhmasib, Ə.Axundov, N.Seyidov, H.Qasımov, Ə.Qarabağlı və b.nın fəaliyyəti, elmi yaradıcılığı. M.Təhmasibin mərasim folkloru, nağıllar və s. haqqında məqalələri. Folklorla bağlı monoqrafik tədqiqatlara başlanması.

[1], [2], [6], [7], [8], [10], [11], [16], [23], [36], [37], [40], [48], [55].

## 13. 1960-70-ci illərdə Azərbaycan folklorşünaslığı

Azərb. SSR EA Ədəbiyyat İnstitutunun Folklor şöbəsi əsas folklorşünaslıq mərkəzi kimi.

"Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər"in (AŞXƏDT) nəşrə başlanması.

Çoxcildlik folklor nəşrləri: "Azərbaycan dastanları"nın, "Azərbaycan nağılları"nın beşcildlikləri 1960-1970-ci illər mərhələsində folklor mətnlərinin ən mühüm nəşri kimi. "Azərbaycan folklor antologiyası" (2 kitabda, 1968) mühüm nəşrlərdən biri kimi.

"Kitabi-Dədə Qorqud", "Koroğlu", qaçaqçılıq dastanları, məhəbbət dastanlarının yeni nəşrləri. Monoqrafik tədqiqatların aparılmasında mövzu, problem baxımından genişlənmə.

M.Təhmasib, Ə.Axundov, M.Seyidov, V.Vəliyev, P.Əfəndiyev, Ə.Cəfərzadə, İ.Abbaslı, M.Həkimov, S.Paşayev və b.-nın əsərləri. M.Təhmasibin "Azərbaycan xalq dastanları (orta əsrlər)", T.Fərzəliyevin "Azərbaycan xalq lətifələri", X.Koroğlunun

“Oğuz qəhrəmanlıq eposu”, Ş.Cəmşidovun “Kitabi-Dədə Qorqud” monoqrafiyaları və s.

Folklorun ali məktəblərdə tədrisi və V.Vəliyevin, P.Əfəndiyevin ilk dərslikləri.

[1], [2], [6], [7], [8], [10], [11], [16], [37], [48], [55].

## 14. 1980-90-cı illərdə Azərbaycan folklorşünaslığı

Mərhələnin əsas folklorşünaslıq mərkəzləri. BDU-nun Folklor kafedrasının, EA-nın Ədəbiyyat İnstitutunun nəzdində Dədə Qorqud Folklor Sarayının (sonradan Folklor İnstitutunun) fəaliyyəti.

Görkəmli folklorşünaslar – ədəbiyyatşünaslarla bərabər, yeni nəsil araşdırmaçılarının fəaliyyəti. A.Nəbiyev, X.Koroğlu, Y.Qarayev, V.Vəliyev, P.Əfəndiyev, M.Həkimov, D.Əliyeva, Ş.Cəmşidov, İ.Abbaslı, Q.Paşayev, B.Abdulla, M.Qasımlı, M.Cəfərli, V.Hacıyev, Ç.Quliyev, N.Xəlilov, H.İsmayılov, E.Məmmədov və b.-nın yaradıcılığı. Dövrün mühüm nəşrləri və tədqiqatları.

“Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin keçirilməsi ilə əlaqədar görülən davamlı işlər qorqudşünaslığın inkişafının yeni mərhələsi kimi. İkicildlik “Dədə Qorqud ensiklopediyası”, “KDQ”-un yeni elmi-tənqidi mətninin (prof.S.Əlizadə) nəşri Azərbaycan folklorşünaslığının uğuru kimi.

“Koroğlu” dastanının fərqli variantlarının çap olunması; regional folklor ekspedisiyalarının təşkili və antologiyalarının nəşri; mifologiya, mərasim folkloru, arxaik janrların yeni metodoloji istiqamətlərdə öyrənilməsi bu mərhələnin seçkin əlamətləri kimi.

[1], [2], [10], [37], [40], [48], [55].

## 15. Çağdaş dövrdə folklorşünaslığın aktual problemləri

XXI əsrin əvvəllərində Azərbaycanda folklorşünaslığın inkişaf mənzərəsi. Folklorşünaslıq mərkəzləri.

Əsas, davamlı folklor nəşrləri. Folklor İnstitutunun “Azərbaycan folkloru antologiyaları”, “Azərbaycan folkloru külliyyatı”, regionlardan toplanmış “Örnəklər”, “Azərbaycan folklorunun ilkin nəşrləri” və s. seriyalardan olan nəşrləri.

Əsas elmi-nəzəri toplular. “AŞXƏDT”, “Folklorşünaslıq məsələləri”, “Dədə Qorqud”, “Folklorşünaslıq” və s.

Beynəlxalq əlaqələr və "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" uluslararası simpoziumları.

Çağdaş dövrdə Azərbaycan folklorunun nəşri və tədqiqinin əsas istiqamətləri.

Folklorun arxaik kökləri, mif və mərasimlərlə bağlılığı. M.Kazımoğlunun "Xalq gülüşünün arxaik kökləri" monoqrafiyası milli folklorşünaslığın konseptual, nəzəri-metodoloji uğuru kimi. F.Bayat, S.Rzasoy, A.Xəlil, A.Hacıyev, R.Qafarlı, R.Əliyev, M.Məmmədov və b.-nın əsərləri.

Folklor poetikasının tədqiqi. M.Cəfərlinin "Məhəbbət dastanlarının poetikası", O.Əliyevin "Nağılların poetikası", M.Kazımoğlunun "Xalq gülüşünün poetikası" əsərləri. K.Vəliyev, N.Cəfərov və b.-nın əsərləri.

Aşıq yaradıcılığının tədqiqi. M.Qasımlı, Q.Namazov, M.Allahmanov, E.Məmmədov və b.-nın əsərləri.

Folklor mətnlərinin tərcüməsi və folklorşünaslıq əlaqələrinin öyrənilməsi. S.Orucovanın monoqrafiyaları. F.Mustafayeva və b.-nın əsərləri.

Folklor və yazılı ədəbiyyat problemi. K.Əliyev, M.Kazımoğlu, N.Xəlilov və b.-nın əsərləri.

Cənubi Azərbaycanda və mühacirətdə Azərbaycan folklorşünaslığının öyrənilməsi. P.Əfəndiyev, A.Nəbiyev, İ.Abbaslı, A.Həsənqızı, Ə.Şamil və b.-nın əsərləri.

Beynəlxalq nəzəri-metodoloji konsepsiyaların tətbiqi məsələləri. Strukturalist, tarixi-coğrafi, süjet və motivlərin kataloqlaşdırılması və indeksasiyası, etimoloji, analoji və s. üsullar əsasında araşdırmaların aparılması. M.Kazımoğlu, A.Acalov, S.Rzasoy, R.Kamal, A.Xəlil, K.İslamzadə, İ.Rüstəmzadə və b.-nın əsərləri.

Eposşünaslığın inkişafında yeni araşdırmalar. K.Əliyev, F.Bayat, Ə.Əsgər, Ü.Nəbiyeva, E.Abbasov, K.Həsənova və b.-nın əsərləri. "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş "Kitabi-Dədə Qorqud" və türk dünyası" beynəlxalq elmi konfransının qorqudşünaslığın inkişafı baxımından yeri və əhəmiyyəti.

[1], [2], [3], [9], [10], [12], [13], [14], [41], [43], [44], [47], [48], [49], [50], [53], [54].

## Tədris texnologiyaları, təlimin interaktiv formaları

Kursun qarşısında qoyulan məqsədlərə çatmaq üçün həm ənənəvi metodlardan, həm də yeni tədris üsullarından istifadə edilməsi, onların bir-biri ilə əlaqələndirilməsi nəzərdə tutulur. Ənənəvi təlim metodları məqalə, monoqrafiya, dissertasiya və s. mənbələrdən ibarət olan elmi ədəbiyyat və müəllimin mühazirə mətnləri əsasında həyata keçirilən təlim üsullarıdır. Elektron vasitələrdən istifadə etməklə slaydların nümayiş etdirilməsi isə tədris prosesinin keyfiyyətini artırmağa, vizual yaddaşı möhkəmləndirməyə yönəlik yeni metodlardan sayılır. Slaydlarda folklorşünaslıq elmi tarixində görkəmli rol oynamış alimlərin şəkli, onların mühüm əsərlərinin titul səhifəsi və ya üz qabığının surəti, ayrı-ayrı elmi konsepsiya və ideyaların sxemlərdə ifadəsi əks oluna bilər.

## Tədris resursları

Tədris prosesində əlavə resurslardan istifadə olunması da məqsədəuyğundur. Buraya mövzu ilə, görkəmli dünya və ölkə folklorşünaslarının həyat və fəaliyyəti ilə əlaqədar hazırlanmış televiziya verilişlərinin, sənədli filmlərin yazıldığı disklər, müxtəlif internet materialları və slaydların nümayişi üçün lazım olan texniki avadanlıqlar daxildir.

## Sərbəst (fərdi) işlərin mövzuları

1. Folklorşünaslığın təşəkkülündə ilkin qaynaqlar
2. Folklorla bağlı konseptual problemlər və Mifoloji nəzəriyyə
3. İqtibas nəzəriyyəsi və səyyar süjetlər problemi
4. Antropoloji nəzəriyyə və onun nümayəndələrinin elmi irsi
5. Folklorşünaslıq tarixində Fin məktəbi və beynəlxalq süjet kataloqları
6. Folklorşünaslıqda strukturalizm və onun müasir təmayülləri
7. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycan

folklorşünaslığı

8. Azərbaycan sovet folklorşünaslığı və nümayəndələri

9. Müstəqillik dövrü Azərbaycan folklorşünaslığı

10. Folklor mətnlərinin öyrənilməsində elmi tədqiqat metodları

**Ədəbiyyat:**

***Əsas:***


1. Abbaslı İ. Azərbaycan folklorşünaslığı: təşəkkülü və inkişaf mərhələləri. // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. IX kitab, B.: "Səda" nəşriyyatı, 2000, s. 3-5
2. Abbaslı İ. Folklorşünaslıq. // Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I cild, B.: "Elm", 2004, s. 686-706
3. Bayat F. Folklor dərsləri. (İkinci nəşr), B.: "Çıraq" nəşriyyatı, 2018, 528 s.
4. Əfəndiyev P. Azərbaycan folklorşünaslığı (1920-ci ilə qədər). B.: 1994, 156 s.
5. Əfəndiyev P. Azərbaycan folklorşünaslığı (1920-1930-cu illər). B.: 1997, 130 s.
6. Əfəndiyev P. Azərbaycan folklorşünaslığı (1940-1960-cı illər). B.: 1998, 104 s.
7. Əfəndiyev P. Azərbaycan folklorşünaslığı tarixi. B.: 2006, 476 s.
8. Əfəndiyev P. Azərbaycan folklorşünaslığı (müntəxəbat). B.: 2000, 223 s.
9. Əliyev K. Çağdaş folklorşünaslığın problemləri. B.: "Elm və təhsil", 2017, 364 s.
10. Əliyeva G. Azərbaycan folklorunun nəşr tarixi problemləri. B.: "Təhsil", 2011, 224 s.
11. Fərzəliyev T., Abbasov İ. Azərbaycan folklorşünaslığı son 30 ildə. // Azərb.SSR EA-nın Xəbərləri. Dil, ədəbiyyat və incəsənət seriyası. 1975, № 3, s. 14-19
12. Həsənqızı A. Folklorşünaslığa giriş. B.: Elm və təhsil, 2015, 260 s.
13. Xəlil A. Folklorşünaslığa giriş. // Folklor terminləri. B.: "Nurlan", 2010, s.3-37

14. Kazımoğlu M. Azərbaycan folklorşünaslığı: tarix və müasirlik. // Kazımoğlu M. Folklor həm keçmiş, həm də bu gündür. Məqalələr. B.: Elm və təhsil, 2014, s.110-13
15. Qasımov C.Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi. B.: "Nurlan" nəşriyyatı, 2011, 600 s.
16. Mühacirətdə folklor araşdırmaları. I kitab, B.: "Elm və təhsil", 2015, 252 s.
17. Orucova S. Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri (QƏXTMT – SMOMPK materialları əsasında). B.: "Elm və təhsil", 2012, 536 s.
18. Rüstəmzadə İ. Fin məktəbi. // Elmi axtarışlar, XXVIII toplu, B.: "Səda" nəşriyyatı, 2006, səh. 20-23
19. SMOMPK: Azərbaycan folkloru materialları. 1-ci cild, Bakı, Elm və təhsil, 2018, 232 s.
20. SMOMPK: Azərbaycan folkloru materialları. 2-ci cild, Bakı, Elm və təhsil, 2019, 264 s.
21. Talıblı E. Folklorşünaslıq elminin təşəkkülü haqqında. // "Folklorşünaslıq məsələləri" toplusu, 2007, VI buraxılış, s. 20-27
22. Talıblı E. Mahmud Kaşğaridən Dədə Qorquda.// "Kitabi-Dədə Qorqud" və türk dünyası". "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın Materialları. B.: 2015, s. 142-152
23. Təhmasib M. Seçilmiş əsərləri. 2 cilddə, I c., B.: Mütərcim, 2010, 488 s.
24. Umudov Q. Azərbaycan folklorşünaslığı: tarixi və problemləri. B.: 2011, 152 s.
25. Азадовский М.К. История русской фольклористики. М.: Инс-тут русской цивилизации, 2014, 1045 с.
26. Гацак В.М. Фольклористика Советского Союза за 50 лет. // «Изв. АН СССР, ОЛЯ», 1972, т. 31, в. 6
27. Дантес А. Фольклор: семиотика и/или психоанализ (Сборник статьей), М.: Восточная литература РАН, 2003, 284 с.
28. Коккьяра Дж. История фольклористики в Европе. М.: Изд-во Иностранной Литературы, 1960, 680 с.
29. Леви-Стросс К. Структурная антропология. М.: Изд-во ЕКСМО-пресс, 2001, 512 с.

30. Малиновский Б. Научная теория культуры. М.: ОГИ, 2000, 208 с.
31. Путилов Б.Н. Фольклор и народная культура. М.: Наука, 1994, 239 с.
32. Тайлор Э.Б. Первобытная культура. М.: Политиздат, 1989, 586 с.
33. Фрезер Д.Д. Золотая ветвь. 2-ое изд., М.: Ролитиздат, 1983, 703 с.

***Əlavə:***

34. Abdullayev B. Yusif Vəzir Çəmənzəminli və folklor. B.: "Elm", 1981, 124 s.
35. Abid Ə. Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı, Elm və təhsil, 2016, 240 s.
36. Cəfəroğlu Ə. Seçilmiş əsərləri. B.: Mütərcim, 2008, 408 s.
37. Əliyeva X. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti. B.: Nurlan, 2009, 156 s.
38. Əliyeva Ü. "Azərbaycan yurd bilgisi" dərgisində folklıorşünaslıq məsələləri. B.: "Elm və təhsil", 2014, 136 s.
39. Həbibova Z. Hümmət Əlizadənin folklorşünaslıq irsi. B.: "Təhsil" NPM, 2008, 168 s.
40. Həsənqızı A. Mühacirətdə folklor janrlarının tədqiqi. B.: "Elm və təhsil", 2012, 212 s.
41. Həsənova K. "Kitabi-Dədə Qorqud"da ənənəvi süjetlər.B.: "Nurlan", 2018, 156 s.
42. Xəlil A. Mahmud Kaşqarlının "Türk dillərinin divanı kitabı"nda ədəbi mətnlər. B.: "Səda", 2001, 182 s.
43. Xəlilov N. Heca vəzni və aşıq sənətinin yaranma tarixi. B.: "Xəzər" Universiteti, 2014, 174 s.
44. İslamzadə K. Dastan yaradıcılığında cəngavər qadınlar. B.: Elm və təhsil, 2019, 208 s.
45. Jirmunski V. Xalq qəhrəmanlıq eposu. Azərbaycan Tərcümə Mərkəzi, B.: 2017, 432 s.
46. Məmmədov M. Repressiya qurbanı Vəli Xuluflunun folklorşünaslıq fəaliyyəti.// "Ulduz" jurnalı, 2012, № 5, s. 45-49
47. Nəbiyev A. Azərbaycan aşıq məktəbləri. B.: "Nurlan", 2004, 312 s.

48. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I kitab, B.: "Apostroff", 2014, 592 s.
49. Nəbiyeva Ü. "Dədə Qorqud": epuk repertuardan əlyazmaya. B.: "Elm", 2007, 268 s.
50. Orucova S. Müasir folklorşünaslığın qayğıları, problemləri və qarşıda duran vəzifələr // "Azərbaycan folklor nümunələrində milli mənəvi dəyərlərin təcəssümü" mövzusunda Respublika elmi konfransının materialları. B.: "Elm və təhsil", 2015, s.14-23
51. Propp V.Y. Folklor və gerçəklik. // Osmanoğlu M. Ədəbiyyat nəzəriyyəsi. Müntəxəbat. B.: Kitab Klubu, 2018, s. 299-335
52. Rüstəmzadə İ. Aarne-Tompson kataloqunun nağılların sistemləşdirilməsində rolu // "Dədə Qorqud". Elmi-ədəbi toplu, B.: "Səda" nəşriyyatı, 2004, s. 98-104
53. Rüstəmzadə İ. Azərbaycan nağıllarının süjet göstəricisi (Aarne-Tompson sistemi əsasında). B.: "Elm və təhsil", 2013, 368 s.
54. Rzasoy S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. B.: "Nurlan", 2008, 188 s.
55. Səfiyeva V. Akademik Həmid Araslının folklorşünaslıq irsi. Bakı, Elm və təhsil, 2018, 156 s.
56. Мамедли М. Парадигмы тюркского мифа (Избранные статьи). Киев: Издательство «Панорома», 2018, 192 с.
57. Мелетинский Е.М. Поэтика мифа. Москва: Наука,1976, 407 с.
58. Пермяков Г.Л. Основы структурной паремиологии. Исследования по фольклору и мифологии Востока. Москва: Наука, 1988, , 235 с.
59. Пермяков Г.Л. Пословицы и поговорки народов Востока. Москва: Книжный дом «ЛИБРОКОМ», 2015, 671 с.
60. Пропп В.Я. Исторические корни волшебной сказки. Ленинград: Изд. Ленинградского Университета, 1986, 365 с.
61. Пропп В.Я. Морфология сказки. Москва: Наука, 1969, 168 с.